# Azərbaycan idmançıları dünya reytinq cədvəllərində yüksək pillələrdə yer alıb

**Azərbaycanda yüksək idman potensialı mövcuddur. Müstəqil respublikamızın idmançıları öz uğurları ilə dünyada şöhrət qazanmışlar. Artıq 2014-cü il tarixə çevrilir. Əlbəttə, belə bir məqamda ötən ilə nəzər salmaq, uğurlardan danışmaq və qarşıda duran vəzifələrdən söhbət açmaq ənənə şəklini almışdır. Yola saldığımız 2014-cü ildə Azərbaycan idmanında daha böyük uğurlara imza atılmışdır. Bu isə ondan irəli gəlir ki, idmanın müasir tələblər səviyyəsinə qaldırılmasına Prezident İlham Əliyev tərəfindən daim qayğı və diqqət göstərilir.**

Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. İdmana, Olimpiya hərəkatına dəstək dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycanda idman infrastrukturunun inşasına və müasirləşməsinə də böyük diqqətlə yanaşılır. Son on il ərzində Bakıda və bölgələrimizdə 50-dən çox yeni müasir Olimpiya mərkəzləri tikilib. 2014-cü ildə Çində keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında ölkəmizin gənc atletləri 5-i qızıl olmaqla 12 medal qazanaraq iki yüzə yaxın ölkənin arasında onuncu yeri tutmuşlar. Onuncu yer o deməkdir ki, biz dünyanın aparıcı idman ölkələri sırasındayıq. Bu Azərbaycanda idmanın təşviqi, lazımi infrastrukturun qurulmasının bariz nümunəsidir. London və Nankində medal qazanmış bütün atletlər müstəqillik illərində formalaşmış idmançılardır. Bu gün ölkəmizdə Prezident İlham Əliyev tərəfindən idmana və idmançılara qayğı və diqqət göstərilir. Ölkəmizin rəhbəri mütəmadi olaraq idmançılarla yaddaqalan görüşlər keçirir. Biz müstəqilliyimizi bərpa etdikdən sonra 1996-cı ildən Olimpiya Oyunlarında iştirak edirik və qısa bir zamanda idmançılarımız uğurlu nəticələrə imza atıblar. Oyunlardan-oyuna qazanılan medalların sayı artmaqdadır. Son Yay Olimpiya Oyunlarında ölkəmizin yığma komandası ikisi qızıl olmaqla on medal qazanaraq, bu nəticə ilə Avropa ölkələri arasında 15-ci yerdə, ümumi iştirakçılar arasında isə 30-cu yerdə oldu.

Ölkəmiz müxtəlif beynəlxalq idman tədbirlərinin keçirilməsində böyük təcrübə əldə edib. Azərbaycanda idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatları keçirilir. Bir sözlə, idmançılarımızın nailiyyətlərini dövlət tərəfindən idmanın inkişafına olan dəstəyi, mövcud idman infrastrukturunun və əlbəttə, ölkənin ümumi sürətli inkişafını nəzərə alaraq ilk Avropa Oyunlarının məhz Azərbaycanda keçirilməsi qərara alınıb.

Vurğulamaq lazımdır ki, ilk Avropa Oyunlarında 6 mindən çox idmançı iştirak edəcək, 20 idman növündə yarışlar keçiriləcəkdir. Birinci Avropa Oyunları idman tarixində yeni bir səhifə açacaq. Baxmayaraq ki, hazırlığa cəmi iki il yarım vaxt ayrılmışdı. Azərbaycan bu oyunları yüksək səviyyədə keçirmək əzmindədir. Bunun üçün bütün lazımi tədbirlər həyata keçirilir və zəruri addımlar atılır. Ölkəmizdə ilk Avropa Oyunları üçün güclü Təşkilat Komitəsi yaradılmışdır. Beynəlxalq qurumlarla, Avropa Olimpiya Komitəsi, Beynəlxalq idman federasiyaları ilə çox uğurlu əməkdaşlıq qurulmuşdur, çoxsaylı könüllülərin köməyindən istifadə olunur. Ümidvaram ki, Birinci Avropa Oyunları ədalətli, sağlam rəqabət, dostluq və həmrəylik şəraitində keçiriləcəkdir. İlk Avropa Oyunları gələcək yarışlar üçün böyük bir zəmin olacaqdır. Biz idmançıların Avropa Oyunlarında çox möhtəşəm nəticələr göstərəcəklərinə inanırıq.

Avropa Oyunları ilə əlaqədar kifayət qədər zəngin mədəni tədbirlər proqramı hazırlanıb və həyata keçiriləcəkdir. 2014-cü ilin noyabrında Avropa Olimpiya Komitəsinin Bakıda keçirilən 43-cü Baş Assambleyasının toplantısında Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti Tomas VAX çıxışında demişdir: “Gələn ilin birinci yarısında Avstriyada və Lixtenşteyndə Avropa Yeniyetmələrinin Qış Olimpiya Festivalı, ilk Avropa Oyunları isə məhz burada Bakıda keçiriləcəkdir. Ondan sonra növbəti gənclər festivalı Gürcüstanın paytaxtı Tbilisidə təşkil olunacaq. 2015-ci il sözün əsl mənasında gərgin qrafiki ilə seçiləcək bir idman ili olacaq”.



Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə idmanın inkişafında böyük xidmətləri olan Azərbaycanın birinci xanımı, Təşkilat Komitəsinin rəhbəri Mehriban Əliyevanın fəaliyyəti danılmazdır. Təşkilat Komitəsi tərəfindən zəngin tədbirlər proqramı hazırlanıb həyata keçiriləcək.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və yeni il münasibəti ilə ölkəmizin çoxsaylı idmançılarını təbrik edir və inanırıq ki, Birinci Avropa Oyunlarında Azərbaycan idmançıları uğurlu nəticələrə imza atacaqlar.

**Ağacan ABİYEV,**
**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru, professor, millət vəkili.**